# Azərbaycan dramaturgiyasında Hüseyn Cavidin yeri



*«Azərbaycan poeziyasında fəlsəfi lirikanın təkrarsız nümunələrini yaradan Cavid ümumbəşəri problemləri humanizm mövqeyindən işıqlandıran mənzum faciələri və tarixi dramları ilə Azərbaycan dramaturgiyasında yeni bir mərhələ açmışdı. Milli bədii düşüncə tarixini mövzu baxımından və bir-birindən parlaq xarakterlərlə zənginləşdirən Hüseyn Cavid sənətkar şəxsiyyətlərin böyüklüyünü nümayiş etdirən ibrətamiz həyat yolu keçmişdir».*

Azərbaycan ədəbiyyatının inkişafında müstəsna xidmətləri olan Hüseyn Cavidin 125 illik yubileyini layiqincə keçirmək üçün müxtəlif tədbirlər planı hazırlandı. Oktaybr Cavidlər ayıdır. Naxçıvandan başlamış Azərbaycanın bütün bölgələrində Hüseyn Cavidlə bağlı möhtəşəm günlər artıq start götürüb.

Hüseyn Cavid 1882-ci ilin oktyabrın 24-də Naxçıvanda Abdulla Rasizadənin ailəsində anadan olmuşdu. Böyük qardaşı Məhəmməd Rasizadə dövrünün mükəmməl təhsil görmüş ziyalılarından biri idi. Uzun illər müəllimlik və mühərrirlik etmiş Məhəmməd Rasizadə bir müddət Naxçıvan Pedaqoji Məktəbinin dil və ədəbiyyat müəllimi olmuşdur. Təbii ki, belə bir mühitdə böyüyən Hüseyn də ədəbiyyata maraqlı olmaya bilməzdi. Doğrudur, o, ilk təhsilini mədrəsədə alıb. 14 yaşında ikən məşhur maarifçi Məmmədtağı Sidqinin açdığı məktəbə daxil olub. 1898-ci ildə oranı bitirib. Amma valideynləri Hüseyni din xadimi görmək istəyirdilər. Bu səbəbdən də övladlarının təhsilini daha da təkmilləşdirmək üçün onu Təbrizə göndəriblər. Abdulla Şaiq «Xatirələr»ində yazır ki, Təbrizdə «Talibiyyə» məktəbində farsca-ərəbcə oxumağa başlayan Hüseyn bu arada şiddətli göz ağrısına tutulub. Ona görə də təhsilini yarımçıq qoyaraq bir müddət ticarətlə məşğul olub.

Hüseyn Cavid 1903-cü ilin iyul ayında ali savad almaq üçün İstanbula gedib. Lakin Türkiyədə Cavid möhkəm xəstələndiyindən yenidən Naxçıvana qayıdıb. Sağaldıqdan sonra Bakıya gəlib.

Hüseyn Cavid vətənə qayıtdıqdan sonra həm bədii yaradıcılıqla, həm də pedaqoji fəaliyyətlə məşğul olmuşdur. 1937-ci il repressiyasının caynaqlarına ilişənə qədər Hüseyn Cavid bu iki sənəti ləyaqətlə davam etdirmişdir.

Məqsədi vətəninə, millətinə layiqincə xidmət etməkdən ibarət olan görkəmli şair və dramaturq Hüseyn Cavid ötən əsrin əvvəllərindəki aprel çevrilişindən sonra yaşanan haqsızlığa, qeyri-insani münasibətlərə müqavimət göstərərək öz dəsti-xətti ilə Azərbaycan ədəbiyyatında yeni mərhələnin əsasını, eləcədə mənzum dramın bünövrəsini qoymuşdu. Sələf və xələflərinə bənzəməyən Hüseyn Cavid ürəyi susana qədər vicdanının dediklərini yazan və ömrü boyu həqiqətin əsiri olan, gözəlliyə tapınan bir mütəfəkkir idi.

Yaradıcılığa şerlə başlayan Hüseyn Cavid «Ana» adlı ilk pyesini 1910-cu ildə yazmışdır. 1937-ci ilə kimi bir-birinin ardınca 20-dən çox pyesi ədəbiyyatımızın incilərinə çevrilirdi: «Maral», «Şeyx Sənan», «Uçurum», «Sevda», «İblis», «Afət», «Peyğəmbər», «Topal Teymur», «Knyaz», «Səyavuş», «Xəyyam», «İblisin intiqamı», «Atilla», «Koroğlu» ssenarisi, «Azər» (yarımçıq) poeması və s. Görkəmli tənqidçi Yaşar Qarayev yazırdı: «Azərbaycan ədəbiyyatında müharibə əleyhinə yazılmış ən güclü əsər «İblis» fəlsəfi faciəsidir». Bu pyes o zaman tamaşaya qoyulmuşdur ki, artıq 30-cu illərin repressiyası iti qılıncını işə salaraq millətin işığını qapatmaqda idi. Gecələr qapılar döyülür, görkəmli insanlar gedər-gəlməzə göndərilirdi.

Tarixi mövzularda möhtəşəm əsərlər yaradan Hüseyn Cavid əsrlərin ən dərin qatlarına dövrünün gözü ilə baxaraq işlədiyi mövzunu elə qüdrətlə mənalandırdı ki, ədibin bütün ədəbi vuruşları döyüşlərdən qalib çıxdı. Bu səbəbdən də onun əsərlərində yalnız Azərbaycan deyil, bütün bəşəriyyəti düşündürən problemlərə işıq saçılırdı. Hüseyn Cavidin axtardığı həqiqətin mənası təkcə öz vətəninin deyil, bütün bəşəriyyətin xoşbəxtliyidir. Hüseyn Cavid yaradıcılığına həmişə diqqət və həssaslıqla yanaşan ümummilli liderimiz Heydər Əliyevin sözləridir: «Hüseyn Cavid öz iradəsi ilə yaşamış, məhz öz iradə və millətinə sadiq olmuşdur».

Gözəlliyə vurğun kəsilən, qəlbi həmişə nəcib

əməllərlə döyünən şair «Peyğəmbər» dramında sanki başına gələnlərə əvvəlcədən qiymət verirmiş:

> ***Məhv edən haqlı, məhv edən haqsız,***
> ***Həm münafiq, şərəfsiz, əxlaqsız...***

Bu, tamamilə təsdiqlənmiş bir fikirdir ki, Azərbaycan ədəbiyyatını və teatrını Hüseyn Cavidsiz təsəvvür etmək mümkün deyildir. Hüseyn Cavid elə bir dövrdə yaradıcılığa başlamışdır ki, tənələr içində ucalan dağa bənzəyirdi. Onun qələmə aldığı bütün mövzular bəşəriliyi ilə seçilirdi.

Ümummilli liderimiz Heydər Əliyevə məxsus fikirdir: «Hüseyn Cavidi Şərqin Şekspiri adlandırırlar. Ancaq onu bəlkə də Höte ilə müqayisə etmək olardı. Əsərlərindəki fəlsəfi fikirlərinə görə, ola bilsin, Cavid Şekspirdən də yüksək səviyyəyə qalxmış bir adamdır... Xalqımız, tariximiz nə qədər yaşayacaqsa, Hüseyn Cavidin irsi o qədər yaşayacaqdır, yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir».

Hüseyn Cavidin bütün yaradıcılığı, bütün fəaliyyəti Azərbaycan xadqının mədəniyyətini yüksəklərə qaldırmaqdan, xalqımızı azad, müstəqil xalq etməkdən ibarətdir. Onun bütün yaradıcılığı Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çağırıbdır. O həmişə öz iradəsi ilə yaşamış, öz iradəsinə, millətinə sadiq olmuşdur, millətini, xalqını həddindən artıq sevmiş və millətinə həddindən artıq xidmət edən bir insan olmuşdur...»

Bu mənada, onun dram əsərləri xüsusilə qeyd edilməlidir. Azərbaycan dramaturgiyasında Hüseyn Cavidin diqqətçəkən önəmli yer tutması ilk növbədə onun bütöv şəxsiyyət olması ilə bağlıdır...

**Fidanə MƏZAHİMQIZI**
**(CAVADOVA)**

**Ədəbiyyat**

1. H.Cavid. Əsərləri. 3 cilddə. 1 cild. B. 2003.
2. Y.Qarayev. Faciə və qəhrəman. B. 1965.
3. F.Xəlilzadə. Faciəli ömrün qəmli dastanı. «Azərbaycan» qəzeti, 24 oktyabr 2007-ci il.
4. C.Vəzirov. Bəraət. Hüseyn Cavidə onu Heydər Əliyev verib. «Mədəni-maarif» jurnalı 2007 №10/11.
5. L.Əsgərzadə. H.Cavidin Türkiyə dövrü. «Mədəni-maarif» jurnalı 2007 №9.